## POS-terminalların onlayn qeydiyyatı

İyun ayının 1-nə 22 min 93 POS-terminal elektron qaydada qeydiyyata alınmışdır

Həm ölkəmizin işgüzar mühitində, həm də qəzetimizin səhifələrində POS-terminalların quraşdırılması ilə bağlı məsələlər xeyli aktuallaşmışdır.

POS-terminalların onlayn qeydiyyatının texnoloji proses olduğunu nəzərə alaraq, bəzi məsələlərə aydınlıq gətirməyi zəruri hesab edirik.

Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının ərazisində POS-terminalların istismar və istifadə edilməsi qaydaları»na əsasən, qeydiyyat nömrəsinin alınması üçün POS-terminallar barədə məlumatlar Vergilər Nazirliyinə prosessinq mərkəzləri tərəfindən göndərilməlidir. Hazırda ölkəmizdə altı belə prosessinq mərkəzi var: AzəriCard, Millikart, Texkart, RoyalCard, Bank of Baku və Kapitalbank. POS-terminalların internet üzərindən qeydiyyata alınması üçün Vergilər Nazirliyi tərəfindən xüsusi proqram təminatı hazırlanmış və prosessinq mərkəzlərinə həmin proqramlardan istifadə üçün istifadəçi adları, şifrə və parollar verilmişdir. İstifadəçilər (prosessinq mərkəzlərinin əməkdaşları) həmin şifrə və parolun köməyi ilə Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalına daxil olur və portalın «Onlayn kargüzarlıq» bölümündən müvafiq ərizə növünü seçərək POS-terminalın qeydiyyat məlumatlarını sistemə daxil edirlər. Məlumatlar sistemə daxil edilən zaman obyektin kodunun düzgünlüyü, POS-terminalın digər obyektdə qeydiyyatda olub-olmaması yoxlanılır və hər bir halda istifadəçinin ekranına müvafiq mesaj verilir.

Bütün məlumatlar sistemə daxil edildikdən sonra istifadəçinin ekranına qeydiyyat ərizəsinin icraya qəbul edildiyi və POS-terminalın 1 iş günü ərzində qeydiyyata alınacağı barədə mesaj göndərilir.

POS-terminalın qeydiyyata alınması barədə elektron qaydada daxil olmuş ərizə vergi əməkdaşı vizual baxış keçirdikdən sonra təsdiq edilir və sistem tərəfindən POS-terminala qeydiyyat nömrəsi verilərək prosessinq mərkəzinə bildiriş ötürülür. Əlavə olaraq hər iş gününün sonunda qeydiyyata alınmış POS-terminalların siyahıları hazırlanaraq müvafiq prosessinq mərkəzlərinə göndərilir.

POS-terminalların onlayn qeydiyyatına qədər prosessinq mərkəzləri tərəfindən Vergilər Nazirliyinə göndərilmiş məlumatların düzgünlüyü vergi əməkdaşları tərəfindən yoxlanılırdı və bu zaman qeydiyyat məlumatlarında hər hansı kənarlaşma olduqda POS-terminal qeydiyyata alınmırdı. Daha sonra isə Vergilər Nazirliyi tərəfindən qeydiyyata alınmış və qeydiyyata alınması mümkün olmayan POS-terminallar barədə məlumatlar hazırlanır və məktub vasitəsilə müvafiq prosessinq mərkəzlərinə göndərilirdi.

Onlayn qeydiyyat zamanı isə POS-terminalların qeydiyyat məlumatlarının düzgünlüyü sistem tərəfindən yoxlanılır və bütün kənarlaşmalar barədə istifadəçinin ekranına avtomatik mesajlar verilir. Bu isə vaxt itkisinin qarşısını alır. Onu da qeyd edək ki, qeydiyyata alınması üçün POS-terminalın bir sıra texniki tələblərə cavab verməsi vacib şərtlərdəndir. İlk növbədə, terminalın beynəlxalq ödəniş kartlarının qəbulu üçün sertifikata malik olması tələb edilir. Bununla yanaşı, terminalda həm maqnit lent, həm də mikrosxem (çip) əsasında ödəniş kartları vasitəsilə əməliyyatların həyata keçirilməsi üçün müvafiq qurğular,  ödəniş kartları vasitəsilə PİN-kodun daxil edildiyi tələb olunduğu əməliyyatların aparılması üçün nəzərdə tutulmuş PİN-klaviatura olmalıdır.

Bildirək ki, POS-terminalların quraşdırılması məqsədəmüvafiq hesab edilən pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində POS-terminal tətbiq edilmədən quraşdırılan nəzarət-kassa aparatları Vergilər Nazirliyi tərəfindən qeydiyyata alınmır.

A.İBRAHİMOVA